**“Mobil Şöbə”dən daha çox istifadə et - Smartfon qazan!” adı altında**
**Bank Respublika Açıq Səhmdar Cəmiyyəti**
**tərəfindən təşkil edilən və keçirilən**
**stimullaşdırıcı tirajlı lotereyanın keçirilməsinə dair**

# Q A Y D A L A R

Bank Respublika
sizə faydalı

**MÜNDƏRİCAT**

1. Stimullaşdırıcı tirajlı lotereyanın keçirilməsinin hüquqi əsası və onun keçirilmə məqsədi............3
2. Qaydalarda istifadə edilən əsas anlayışlar..........................................................................3
3. Stimullaşdırıcı lotereyanın iştirakçıları...............................................................................3
4. Stimullaşdırıcı lotereyada iştiraka buraxılan əməliyyatlar..............................................3
5. Stimullaşdırıcı lotereyada iştirakçı hüququ və vasitənin əldə edilmə şərtləri.................4
6. Uduş fondunun oynanılması qaydası..................................................................................4
7. Uduşlar........................................................................................................................5
8. Əlavə şərtlər...........................................................................................................................5

## 1. STİMULLAŞDIRICI TİRAJLI LOTEREYANIN KEÇİRİLMƏSİNİN HÜQUQİ ƏSASI VƏ ONUN KEÇİRİLMƏ MƏQSƏDİ

1.1. "Bank Respublika" ASC tərəfindən keçirilən lotereya Azərbaycan Respublikası Mülki Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun olaraq həyata keçirilir.

1.2. "Bank Respublika" ASC tərəfindən keçirilən həmin stimullaşdırıcı tirajlı lotereyanın əsas məqsədi Bank ilə müştərilər tərəfindən göndərilən və alınan pul köçürmələrinin sayının artırılmasını stimullaşdırmaqdır.

1.3. Stimullaşdırıcı tirajlı lotereyanın obyekti Təşkilatçı tərəfindən işlənib hazırlanmış "Mobil Şöbə" əlavəsinin istifadəçiləri hesab edilir.

1.4. Bu Qaydalarla tənzimlənməyən münasibətlər Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə tənzimlənir.

## 2. QAYDALARDA İSTİFADƏ EDİLƏN ƏSAS ANLAYIŞLAR

2.1. Bu Qaydaların mətnində işlədilən və mənası anlaşılmaz və ya genişləndilmiş mənada istifadə oluna bilən terminlərin anlayışları aşağıdakılardır:

- **Təşkilatçı** – Azərbaycan Respublikasının hüquqi şəxsi olan, Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən 15 dekabr 1992-ci il tarixində verilmiş 83 saylı lisenziya əsasında fəaliyyət göstərən və həmin lotereyanı keçirən "Bank Respublika" ASC - VOEN: 9900001901. (Ünvan: AZ 1095, Bakı şəhəri, Xaqani küçəsi 21, tel: (+99412) 598 08 00, faks: (+99412) 598 08 80.)
- **İştirakçılar** – Təşkilatçının "Mobil Şöbə" əlavəsindən istifadə edən fiziki şəxslər.
- **Əməliyyat** – "Mobil Şöbə" əlavəsi vasitəsilə aparılmış hər hansı bir əməliyyat.

## 3. STİMULLAŞDIRICI LOTEREYANIN İŞTİRAKÇILARI

3.1. Stimullaşdırıcı lotereyanın iştirakçıları yalnız Təşkilatçının "Mobil Şöbə" əlavəsi vasitəsilə hər hansı bir əməliyyat aparan fiziki şəxslər ola bilər.

## 4. STİMULLAŞDIRICI LOTEREYADA İŞTİRAKA BURAXILAN ƏMƏLİYYATLAR

4.1. Bu Qaydalara uyğun olaraq keçirilən stimullaşdırıcı lotereyada iştirak etmək üçün aparılmış əməliyyata dair şərtlər aşağıdakılardır:

- maksimum sayda tranzaksiya aparan müştəri qalib elan olunacaq;
- əməliyyat 2016-cı ilin Mayın 20-dən (daxil olmaqla) 2016-cı ilin İyun ayının 20-dək (daxil olmaqla) Təşkilatçının "Mobil Şöbə" əlavəsi vasitəsilə aparılmış olmalıdır;
- Kampaniyada yalnız 10 AZN-dən yuxarı olan tranzaksiyalar iştirak edəcək.
- Gün ərzində aparılan eyni tipli tranzaksiyaların yalnız üçü kampaniyada iştirak edəcək.

-

## 5. STİMULLAŞDIRICI LOTEREYADA İŞTİRAK HÜQUQU VƏ VASİTƏNİN ƏLDƏ EDİLMƏSİ ŞƏRTLƏRİ

5.1. “Mobil Şöbə” əlavəsindən istifadə edənlərə avtomatik qaydada identifikasiya nömrəsi verilir. Beləliklə də, bu əlavə üzərindən ən çox sayda tranzaksiya aparan müştəri qalib elan olunacaq.

5.2. Gün ərzində aparılan eyni tipli tranzaksiyaların yalnız üçü kampaniyada iştirak edəcək.

5.3. Bu Qaydalar çərçivəsində keçirilən Stimullaşdırıcı lotereyada iştirakçılar aşağıdakı qaydada və bərabər nisbətdə iştirak hüququnu əldə edirlər:

5.4. Qaliblər bank tərəfindən kampaniyanın nəticələrinə əsasən müəyyən olunacaq.

5.5. Bu Qaydalar çərçivəsində keçirilən Stimullaşdırıcı lotereyada iştirakçı hüququnu hər hansı bir haqq ödəmədən, sadəcə olaraq əməliyyatın aparılmasına dair elektron bildirişi saxlamaqla və ya saxlamadan bu əməliyyatın mərkəzləşdirilmiş kompüter bazasının yaddaşında Təşkilatçı tərəfindən saxlanması yolu ilə əldə edirlər.

## 6. UDUŞ FONDUNUN OYNANILMASI QAYDASI

6.1. Lotereyanın oynanılması 25 iyun 2016-cı il tarixində Bakı vaxtı ilə saat 15:00-da Bakı şəhəri, Xaqani küçəsi 21 ünvanda yerləşən Təşkilatçının baş inzibati binasında həyata keçiriləcək.

6.2. Qaliblərin müəyyənləşdirilməsi və Stimullaşdırıcı lotereyanın şəffaflığını təmin etmək üçün xüsusi olaraq təşkil olunan və tərkibi 5 (beş) nəfərdən ibarət olan Tiraj Komissiyası təşkil edilir.

6.3. Tiraj Komissiyasının tərkibinə Təşkilatçının dəvət etdiyi müstəqil fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların nümayəndələri daxil edilir.

6.4. 1 ay müddətində “Mobil Şöbə”sindən istifadə edən ən aktiv 15 müştəri stimullaşdırıcı lotereyanın qalibi adını əldə edir və bu Qaydalara müvafiq hüquqlara malik olur.

6.5. Qalib gələn hər bir istifadəçinin identifikasiya nömrəsi Tiraj Komissiyası tərəfindən Tiraj Komissiyasının protokoluna daxil edilərək qeydə alınır. Sonra həmin nömrə altında “Mobil Şöbə” üzrə aparılan əməliyyat elan olunur.

6.6. Lotereyanın nəticələri «Azərbaycan» qəzetində və bankın rəsmi veb səhifəsində (www.bankrespublika.az) dərc olunur.

6.7. Uduş fondunun oynanılması nəticəsində uduş qazanmış şəxslərə Bank telefon və ya digər vasitələrlə onların uduşun qazanması haqqında məlumat verir.

## 7. Uduşlar

7.1. Stimullaşdırıcı lotereyada aşağıdakı uduşlar oynanılır:

- Birinci yerin 2 qalibi: SAMSUNG GALAXY S6 G920 GOLD smartfonları
  (hər qalibə bir smartfon – cəmi 2 smartfon)
- İkinci yerin 3 qalibi: SAMSUNG GALAXY A510 smartfonları
  (hər qalibə 1 smartfon – cəmi 3 smartfon)
- Üçüncü yerin 5 qalibi: SAMSUNG GALAXY A5 DUAL A500 smartfonları
  (hər qalibə 1 smartfon – cəmi 5 smartfon)

7.2. Bu Qaydalar çərçivəsində keçirilən Stimullaşdırıcı lotereyada qalib olmuş iştirakçılar uduşu Stimullaşdırıcı lotereyanın uduş fondunun oynalıdığı tarixindən 12 (ay) ərzində Təşkilatçının Baş Ofisinə (AZ1095, Bakı şəhəri, Xaqani küçəsi 21 ünvanına yerləşən) müraciət edərək əldə edə bilər. Bu müddət keçdikdən sonra lotereyanın qalibinə uduş təqdim edilmir. Qaliblər uduşu əldə etmək üçün mütləq şəxsiyyəti təsdiq edən sənədi təqdim etməlidirlər.

7.3. Qalibin müraciətindən sonra uduş 30 gün müddətinədək qalibə təqdim olunur.

## 8. ƏLAVƏ ŞƏRTLƏR

8.1. Təşkilatçının əməkdaşları lotereyada iştirak etmir və qeydə alınmır.

8.2. Uduşdan imtina olunduğu halda pul kompensasiyası nəzərdə tutulmur.

8.3. Stimullaşdırıcı lotereyanın keçirilməsi və nəticələri ilə bağlı məlumatlar “Azərbaycan” qəzetində və bankın rəsmi səhifəsində (www.bankrespublika.az) dərc olunacaq.